

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 65 (23.477)

*7 may 2020-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sığorta işinin günün tələbləri səviyyəsində yenidən qurulmasına diqqət artırılır

*Etibarlı sığorta sisteminin yaradılması müasir bazar iqtisadiyyatının əsas inkişaf göstəricilərindən biridir. Əhaliyə göstərilən sığorta xidmətlərinin genişlənməsi və keyfiyyətinin yüksəlməsi bu baxımdan baş verən təsadüfi riskli hadisələrin vurduğu maddi zərərlərdən insanları daha yaxşı qorumaqla, eyni zamanda dövlətin həyata keçirdiyi sosial siyasətə də xidmət edir. Ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın çoxşaxəli inkişafı sığorta işi sahəsində də fəaliyyətin təkmilləşdirilməsini zərurətə çevirib.*

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin təşkilati-hüquqi formasının və strukturunun mövcud tələblərə uyğunlaşdırılması və sığorta sisteminin imkanlarından geniş və səmərəli istifadə edilməsi məqsədilə "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı bu vacib sahənin daha da inkişaf etdirilməsi baxımından yeni mərhələnin başlanğıcını qoyub. Bu fərmandan irəli gələn vəzifələrin həll olunması ilə gələcəkdə muxtar respublikada sığorta xidmətinin daha da təkmilləşdirilməsinə, sosial-iqtisadi inkişafa və əhali rifahının yüksəldilməsinə sığortanın verəcəyi töhfələr artırılacaq.

Müasir dövrdə sığorta iqtisadi-sosial həyatın əksər sahələrində tətbiq olunur və sığortalı insanların riskli hadisələr zamanı məruz qaldığı maddi itkilərin əvəzinin ödənilməsində mühüm rol oynayır. Ötən dövrdə muxtar respublikamızda da sığorta fəaliyyətinin genişləndirilməsi və onun etibarlılığının artırılması istiqamətində çox sayda tədbirlər həyata keçirilmişdir. Belə ki, sığorta işçiləri üçün müasir iş şəraiti yaradılmış, səyyar sığorta xidməti təşkil olunmuş, sığorta maarifçiliyi genişləndirilmiş, nəticədə, əhali arasında kütləvi sığortaya maraq xeyli artmışdır. Təkcə cari ilin ilk 3 ayında muxtar respublikada həyata keçirilən 17 icbari və könüllü sığorta növləri üzrə vətəndaşlara xidmətlər göstərilərək daşınmaz əmlakın icbari sığortası üzrə 6760, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə isə 6674 müqavilə bağlanılmışdır. Bundan əlavə, könüllü sığortalardan aqrar sığorta, avtonəqliyyat vasitələrinin tam sığortası, ev əmlakı və fərdi qəza sığortası üzrə, ümumilikdə, 12 min 978 sayda müqavilə bağlanılıb.

Təbii ki, cəmiyyətdə bazar münasibətləri inkişaf etdikcə sığorta sisteminin təkmilləşdirilməsinə də olan tələb artmaqdadır. Sığorta sahəsində peşəkarlığın artırılması, sığorta müqaviləsi bağlayarkən sığortanın mahiyyətinə dair zəruri maarifləndirici məlumatların verilməsi və sığorta müqaviləsi bağlandıqdan sonra sığortaçı və sığortalının üzərinə düşən hüquq və vəzifələrin yerinə yetirilməsi bu sahədə idarəetmənin günün tələbləri səviyyəsində qurulmasını tələb edir. Ayrıca olaraq dünyada geniş tətbiq olunan sığorta növləri üzrə araşdırmaların aparılması, iqtisadiyyatın tələbləri və cəmiyyətin sosial sifarişi əsasında yeni sığorta növlərinin tətbiqi məsələləri də aktuallıq kəsb edir. Sığorta sahəsində yeni innovativ ideyaların dəstəklənməsi, bu sahədə startap layihələrin hazırlanıb həyata keçirilməsi və mobil elektron tətbiqlərin yaradılması müasir sığorta biznesinin uğurunu şərtləndirən əsas amillərdəndir. Sığorta sahəsində idarəetmənin operativliyinə və şəffaflığına nail olmaq, sığorta müqavilələrinin bağlanılması və baş vermiş sığorta hadisələrinə görə vətəndaşların müraciətlərinə baxılması zamanı müasir menecmentin tətbiqi bu baxımdan dövrün tələblərindəndir. Sığorta bazarının marketinq araşdırılması, sığortaya maraqlı əhali təbəqələrinin iqtisadi mənafelərinin təmin olunması üçün araşdırmaların aparılması, eyni zamanda bir elm kimi də bu sahənin qarşısında duran məsələlərdəndir.

Sığorta həm də bir biznes sahəsidir. Odur ki, burada dayanıqlılığın təmin edilməsi və xərclərin idarə olunmasında dövlət büdcəsi yükünün azaldılması, təkrar sığortanın aparılması və maliyyə sabitliyinin təmini də bu sahədə müasir dövrün əsas prioritetləri arasındadır. Bütün bu məsələlərin aktuallığı və muxtar respublikada sığorta bazarının daha da genişləndirilməsi üçün mövcud olan şərait "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsi qarşısında geniş imkanlar yaradır. Dünyada və ölkəmizdə publik şəxslər yaratmaqla idarəetmə və funksional fəaliyyət sahəsində əldə olunmuş müsbət təcrübənin sığorta sahəsində tətbiq olunması ilə xidmətin əməkdaşları bundan sonra da yeni nizamnamədə müəyyən olunmuş bütün vəzifələri yerinə yetirəcək, muxtar respublikanın sosial-iqtisadi inkişafında yaxından iştirak edib, əhalinin keyfiyyətli və etibarlı sığorta xidmətləri ilə təmin olunmasına çalışacaqlar.

Bütün bunlara nail olmaq üçün Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti vətəndaşları muxtar respublikada tətbiq olunan sığorta növlərinə fəal surətdə qoşulmağa, vaxtında sığorta müqavilələri bağlamaqla gələcəkdə baş verməsi ehtimal olunan gözlənilməz hadisələrə qarşı etibarlı sığorta təminatı almağa dəvət edir.

**✍ Əli CABBAROV**

*Naxçıvan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ötən illərdə olduğu kimi, bu il də uğurla davam etdirilir. Yeni, hər cür şəraitə malik binalar inşa edilərək istifadəyə verilir, ehtiyac duyulan ictimai yaşayış binalarında təmir-bərpa işləri aparılır. Əhalinin sosial rifah halının yaxşılaşdırılması naminə atılan bu addımlar demoqrafik vəziyyətə də öz müsbət təsirini göstərib.*

## İctimai yaşayış binaları əsaslı şəkildə təmir edilir

Cari ildə də bu istiqamətdə tədbirlər uğurla icra olunur. Artıq təmir-bərpa olunan binaların əksəriyyətində işlər yekunlaşıb, sakinlər rahat mənzillərində firavan həyat yaşayırlar. Hazırda şəhərimizin bir neçə ünvanında yaşayış binalarının təmir-bərpası davam etdirilir.

Naxçıvan şəhərinin Heydər Əliyev prospekti 64 və Zəroş Həmzəyeva küçəsindəki 117 nömrəli yaşayış binalarında Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən əsaslı işlər həyata keçirilib. Belə ki, hər iki yaşayış binasında söküntü işləri yekunlaşdırıldıqdan sonra bünövrənin bərkidilməsi üçün dəmir-beton işləri aparılıb. Binanın fasad hissəsində və daxilində isə suvaq işi görülüb.





Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki 36 nömrəli yaşayış binasında ötən il sentyabrın 3-dən etibarən başlanılan təmir işlərini də Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları həyata keçirirlər. Onların səyi ilə binanın təmiri üçün nəzərdə tutulmuş əsas inşaat tədbirləri yekunlaşdırılıb. Qapı və pəncərələr dəyişdirilib, fasad hissəyə milli ornamentlərə uyğun travertin üzlüklər çəkilib, bütün kommunikasiya xətləri təzələnib, dəhlizlərə üzlük daş plitələr düzülüb. Hazırda binanın zirzəmisi və dam örtüyü təmir olunur, əraziyə kifayət qədər işçi qüvvəsi cəlb edilib. İnşaatçılar lazım olan mal-materialla təmin olunublar.



**Xəbərlər şöbəsi**

## Əhalinin yerli heyvandarlıq məhsulları ilə təminatı diqqət mərkəzindədir

Muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, aqrar sektorda dinamik inkişaf qorunub saxlanılmış, daxili bazarda məhsul bolluğu yaradılmışdır. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan ərzaq təhlükəsizliyi tədbirləri, ilk növbədə, cəmiyyətin sağlam həyat tərzinin qorunub saxlanılmasına, səmərəli məşğulluğun təmin olunmasına, ümumilikdə, muxtar respublikanın davamlı inkişafına yeni imkanlar yaratmışdır.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm sahələrdən biri də heyvandarlıqdır. Muxtar respublikada yeni heyvandarlıq təsərrüfatlarının yaradılması və mal-qaranın



cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, əlverişli yem bazası, baytarlıq idarələrinin maddi-texniki bazasının gücləndirilməsi, süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə subsidiyanın verilməsi və ixtisaslı kadrlarla təminat heyvandarlığın inkişafını sürətləndirmişdir.

Heyvandarlığın inkişafı istiqamətində cari ilin ilk rübündə 16 heyvandarlıq təsərrüfatının yaradılması, 5 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 12 heyvandarlıq təsərrüfatının yaradılması, 7 heyvandarlıq təsərrüfatının genişləndirilməsi hazırda davam etdirilir. Bu sahə ilə məşğul olan təsərrüfat subyektlərinə cari ilin ilk rübündə bank və kredit təşkilatları tərəfindən 3 milyon 152 min 600 manat kredit verilmişdir.

Muxtar respublikada süni mayalanma işlərini günün tələbləri səviyyəsində təşkil etmək və mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmışdır. Mərkəzdə yeni infrastruktur obyektlərinin tikintisi hazırda davam etdirilir.

2020-ci ilin yanvar-mart aylarında muxtar respublikada heyvandarlıq təsərrüfatlarında 2543 baş inək, düyə və camış süni yolla mayalandırılmış, ötən ildə mayalandırılmış inək, düyə və camışlardan 3246 baş sağlam bala alınmışdır.

Həyata keçirilən dəstəkləyici tədbirlər iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının dinamik artımını təmin etmişdir. Belə ki, 1 aprel 2020-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzlu mal-qaranın sayı 123 min 51 baş, xırdabuynuzlu heyvanların sayı isə 767 min 814 baş olmuşdur ki, bu da 2010-cu ilin müvafiq dövründəki göstəriciləri 16,3 və 19,6 faiz üstələmişdir.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə cari ilin ilk rübündə 2 quşçuluq təsərrüfatının yaradılması və 1 quşçuluq təsərrüfatının genişləndirilməsi işləri davam etdirilmişdir. Bundan əlavə, arıçılığın inkişafı istiqamətində müvafiq tədbirlər görülmüş, 5 arıçılıq təsərrüfatının yaradılması



başa çatdırılmış, 3 arıçılıq təsərrüfatının yaradılması, 2 arıçılıq təsərrüfatının genişləndirilməsi işləri davam etdirilir. Cari ilin ilk rübündə quşçuluğun və arıçılığın inkişafına, ümumilikdə, 131 min 500 manat kredit verilmişdir.

Muxtar respublikada əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatının qorunub saxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Əldə olunmuş uğurlu nəticə kimi 2020-ci ilin ilk rübündə muxtar respublikada diri çəkidə 6330,5 ton ət, 13060,7 ton süd, 27974,5 min ədəd yumurta istehsal olunmuşdur ki, bu da 2010-cu ilin müvafiq dövrü ilə müqayisədə 33,7, 16,4 və 60 faiz çoxdur.

***Əsas heyvandarlıq məhsulları istehsalı (yanvar-mart ayları üzrə)***




2020-ci ilin yanvar-mart aylarında 26 milyon 806 min 500 manatlıq heyvandarlıq məhsulları istehsal edilmişdir ki, bu da 2010-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə çoxdur.

Muxtar respublikada heyvandarlığın inkişafı məqsədilə qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası və görülən digər mühüm işlər bundan sonra da əhalinin keyfiyyətli və yerli heyvandarlıq məhsulları ilə təmin olunmasına müsbət təsir göstərəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Keyfiyyətli toxum yüksək məhsuldarlığa yol açır



*İllərdir, muxtar respublikamızda uzaqgörənliklə aparılan siyasət nəticəsində insanların ilin bütün fəsillərində keyfiyyətli və ekoloji cəhətdən saf təbii ərzaq məhsulları ilə təmin edilməsi üçün lazımi tədbirlər həyata keçirilir. Bu məqsədlə kənd təsərrüfatının inkişafı prioritet məsələ kimi qarşıya qoyulub və görülən silsilə tədbirlər nəticəsində ilbəil bu sahədə əhəmiyyətli uğurlara nail olunur, kənd yerlərində insanların rahat işləməsi, məhsul bolluğu üçün hərtərəfli şərait yaradılır.*

Torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları, mineral gübrələr və innovativ suvarma sistemləri ilə təmin olunması, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, ailə təsərrüfatlarının formalaşması üçün münbit şəraitin yaradılması, eyni zamanda məşğuliyyət növlərinə uyğun ayrılmış maddi yardımlar aqrar sahənin davamlı inkişafına yol açır. Sistemli şəkildə həyata keçirilən kompleks islahatlar sahibkar-torpaq münasibətlərinin elmi əsaslara söykənərək müasir təsərrüfatçılıq formasında inkişaf etdirilməsini reallaşdırmaqla kənd təsərrüfatının bütün sahələri üzrə məhsuldarlığın yüksəlməsinə səbəb olur. Təsadüfi deyil ki, artıq son bir neçə ildir, muxtar respublika sakinlərinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatı tamamilə daxili istehsal hesabına ödənilir. Dünyada geniş yayılan pandemiya dövründə də muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması, ərzaq təchizatı baxımından problemlərin yaşanmaması da məhz aparılan məqsədyönlü aqrar siyasətin uğurudur.

Kənd təsərrüfatı mütəxəssisləri də təsdiqləyir ki, əkinçilikdə, xüsusilə dənli bitkilərin məhsuldarlığının yüksəldilməsində ən təsirli amillərdən biri keyfiyyətli toxumla əkin aparılmasıdır. Deməli, kondisiyalı toxum yetişdirilməsi mühüm şərtdir. Bu mənada, muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarları keyfiyyətli toxumla təmin etməyə çalışan "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir. 2017-ci ilin aprel ayında yaradılan cəmiyyətin qısa zaman çərçivəsində özünə xüsusi imic formalaşdıra bilməsi məhz muxtar respublika rəhbərinin göstərdiyi diqqət və qayğı nəticəsində mümkün olmuşdur.

Təbii ki, əlverişli şərait olan yerdə düzgün fəaliyyət istiqaməti müəyyən edildikdə yüksəliş, uğur da tez bir zamanda əldə olunur. Məhz toxumçuluq təsərrüfatının inkişafını da bu iki amillə səciyyələndirmək olar. Belə ki, dövlətimizin dəstəyi sayəsində qısa zaman çərçivəsində istehsal müəssisəsinin maddi-texniki bazası xeyli möhkəmləndirilib və intensiv metodların tətbiqinə imkanlar yaradılıb. Təsərrüfatın 2000 hektara yaxın torpaq sahəsi, 6 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, eləcə də digər maşın və avadanlıqlar olmaqla, ümumilikdə, 38 adda 87 texnika və texnoloji avadanlığa məxsus olması onun istehsal potensialının artmasını şərtləndirib. Nəticə isə göz qabağındadır. Belə ki, hazırda muxtar respublikamızda toxum tələbatının 80 faizə yaxını yerli istehsal hesabına ödənilir ki, bunun da böyük bir qismi cəmiyyətin payına düşür və gələcəkdə idxalın tamamilə aradan qaldırılması üçün səylə çalışılır. Cari il aprelin 9-da müəssisə üçün yeni kompleksin istifadəyə verilməsi də məhz bu məqsədə xidmət edir və cəmiyyətin istehsal imkanlarını daha da genişləndirərək artan tələbatın ödənilməsinə yol açacaq.





Yaradılan şəraitlə əyani tanış olmaq üçün həmin ünvana yollanırıq. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cəfər Müzəffərov deyir: – Əkinçiliyin inkişaf etdirilməsində münbit torpaqla yanaşı, sağlam toxumun da olması yüksəkkeyfiyyətli məhsul istehsalını şərtləndirən əsas amildir. Sevindirici haldır ki, son illərdə ayrı-ayrı torpaq sahibləri də toxumçuluğun inkişafında fəallıq göstərir, fərdi təsərrüfatlarda da keyfiyyətli toxum sortları yetişdirilməsinə nail olunur.

Bildiyimiz kimi, məhsuldar toxumun əldə olunmasında aqrotexniki qulluğun göstərilməsi ilə yanaşı, əkinlərin vaxtlı-vaxtında suvarılması da əsas şərtdir. Ötən dövr ərzində "Bərəkət Toxumçuluq" təsərrüfatının öz fəaliyyətini genişləndirməsi, əkinlərin yüksək səviyyədə keçirilməsi və istehsal olunan məhsulun keyfiyyətli toxum materialına çevrilməsi üçün Kəngərli rayonunun Böyükdüz kəndində 1023 hektar sahədə qapalı suvarma şəbəkəsi tikilib istifadəyə verilib. Təsərrüfatda keyfiyyətli və yüksək məhsuldarlığa malik toxumlar tədarük etmək üçün əkinlər şırım üsulu ilə aparılır. Bu üsulun üstün cəhətləri çoxdur. Belə ki, şırım üsulu ilə suvarılan torpaq yaxşı rütubətlənir, qaysaq əmələ gəlmir, torpağın strukturu yaxşı saxlanılır, su itkisinə yol verilmir, əkilən sahə quraqlığa qarşı davamlı olur. Əkinlərdə muxtar respublikanın iqlim torpaq şəraitində sınaqdan keçirilmiş "Qualiti", "Qobustan", "Fatimə", "Qılçıqsız", "Bezost" kimi taxıl sortlarından istifadə olunur. Əkin qaydalarına uyğun aparılan işlər nəticəsində ilbəil daha çox miqdarda və keyfiyyətdə toxumlar əldə olunur. Belə ki, 2019-cu ildə təsərrüfat fəaliyyət imkanlarını daha da genişləndirərək bir il öncəkinə nisbətən daha yüksək məhsuldarlığa nail olub, 1067 ton toxum istehsal edilərək fərdi təsərrüfatçılara satılıb. 2020-ci ilin məhsulu üçün ötən ilin payızında 1300 hektar ərazidə taxıl əkini aparılıb, hazırda ərazidə dərmanlama və suvarma işləri görülür. İyun-iyul aylarında məhsul tədarük edilərək anbarlara yığılacaq və daha sonra sortlara ayrılaraq vimlərdən keçirilib dərmanlanaraq 50 kiloqramlıq paketlərdə satışa buraxılacaq.

Cəfər Müzəffərov onu da qeyd edir ki, cəmiyyətin istifadəyə verilən yeni kompleksi istehsal sahələrinin çoxalmasına, imkanların genişlənməsinə səbəb olacaq. Burada taxıl anbarı, qarışıq yem sexi, toxumların satış mərkəzi, tutumu 500 ton olan hazır məhsul anbarı, 2 min hektar əkin sahəsi, texnika və avadanlıqların saxlanılması üçün qaraj, eləcə də təmir sexi yaradılıb. 1924 kvadratmetr sahəni əhatə edən taxıl anbarında bütün texniki tələblər nəzərə alınıb və burada ümumi tutumu 24 min ton olan 48 bunker vardır. Hər birinin tutumu 500 ton olan bunkerlər taxılın keyfiyyətlə və uzun müddət saxlanılmasına imkan verəcəkdir. Qarışıq yem sexinin istehsal gücü ildə 72 min tondur ki burada quşlar üçün kökəltmə və yumurtalıq, mal-qara üçün isə ətlik və südlük istiqamətində 8 çeşiddə yem istehsal olunacaq. Xammal təminatı yerli istehsal hesabına ödənilir ki, bu da keyfiyyətli məhsul istehsalına imkan verir. Müasir avadanlıqların quraşdırıldığı müəssisədə istehsal prosesi tamamilə avtomatlaşdırılmış qaydada həyata keçirilir, hazır məhsullar müxtəlif ölçülərdə paketlənərək satış mərkəzinə göndərilir.

Təsərrüfatda işin səmərəliliyini artırmaq üçün yaradılan 3 mərtəbəli satış mərkəzində 9 iş otağı, laboratoriya, mətbəx, qazanxana və satış zalı da yerləşir. Laboratoriyada quraşdırılan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortlarının genofonduna və seleksiyasına nəzarət olunacaqdır. Satış mərkəzində taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumlarının, eləcə də dekorativ güllərin, meyvə tinglərinin, gübrələrin, dərman preparatlarının, qarışıq və qüvvəli yemin, kənd təsərrüfatında istifadə olunan alət və avadanlıqların da satışı həyata keçiriləcək.

Satış mərkəzində sərgilənən məhsullara tamaşa edərkən bir neçə təsərrüfat adamının məhsullardan sifariş verdiyi diqqətimi çəkir. Babək rayon Qahab kənd sakini Baxşəli Rzayev bildirir ki, uzun illərdir, yaşadığı kənddə əkin-biçin işləri ilə məşğul olur və yaradılan əlverişli şərait hesabına hər il bol məhsul əldə edir. Ötən illər ərzində təsərrüfat fəaliyyətini daha da genişləndirmək məqsədilə Nəcəfəlidizə kəndində də məhsuldar torpaqlar icarəyə götürərək əkin dövriyyəsinə qatıb. Yolunu satış mərkəzindən salması da təsadüfi deyil. Çünki artıq bir neçə ildir "Bərəkət Toxumçuluq" təsərrüfatında istehsal olunan toxumların bəhrəsini görür. Bu dəfə isə ötən ilin payızında əkdiyi taxılı zərərvericilərdən qorumaq üçün dərman preparatları almaq məqsədilə gəlib. Bundan əlavə, satış mərkəzindən bostan və tərəvəz bitkilərinin toxumlarını da əldə edib həyətyanı sahəsində əkəcəyini bildirir. Yaradılan gözəl şəraitə görə dövlətimizə minnətdarlıq edən təsərrüfat adamı gələcəkdə aqrar sahənin inkişafına töhfə vermək üçün daha səylə çalışacağını vurğulayır.

*Müşahidələrdən aydın olur ki, dövlətimiz tərəfindən "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətində çalışan 60 zəhmətsevər insanın səmərəli fəaliyyəti üçün yaradılan gözəl iş şəraiti onları günü-gündən çiçəklənən muxtar respublikamızın inkişafına töhfələr verməyə sövq edir.*

**Nail ƏSGƏROV**

# Ailə təsərrüfatlarının inkişafına göstərilən dəstək öz bəhrəsini verir

*Muxtar respublikamızda ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyəti səmərəli məşğulluğun artmasında, istehsalyönümlü iqtisadi fəaliyyət sahələrinin inkişafında, daxili bazarın yerli məhsullarla təmin edilməsində xüsusi önəm kəsb edir. Bu sahədə aparılan məqsədyönlü işlər ailə təsərrüfatlarının sayının getdikcə artmasına şərait yaradıb, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açıb. Bu gün qədim diyarımızda ailə təsərrüfatları qurub, daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin edən və əldə etdiyi gəlirlə təsərrüfatını ildən-ilə genişləndirən, eləcə də ailə büdcəsinin gəlirlərini daha da artıran zəhmət adamlarının sayı yüzlərlədir. Onlardan biri də Ordubad rayonunun Ələhi kəndində yaşayan Yaşar Həbibovdur.*

O, demək olar ki, bütün təsərrüfat sahələri ilə məşğul olur. Təcrübəli təsərrüfatçı ilə söhbətimiz zamanı bildirdi ki, bu sahəyə həmişə maraq göstərib. İllər keçdikcə yaxşı gəlir əldə etdiyindən daha da ruhlanıb, təsərrüfatında istehsal etdiyi məhsulların çeşidini artırıb. iki hektara yaxın həyətyanı torpaq, biçənək, əlavə bağ sahəsi var. O deyir ki, bərəkətli torpaq sahələri bu məhsulları ərsəyə gətirməkdə mənə böyük dəstəkdir. Çalışıram ki, təsərrüfatımı genişləndirim, daha çeşidli məhsullar istehsal edim. Ekoloji cəhətdən təmiz və təbii məhsullar ərsəyə gətirən Yaşar Həbibovun hazırladığı qovurma, müxtəlif növ mürəbbə və şirniyyatlar, pendir, qatıq, meyvə araqları, eləcə də turşular, salatlar, təbii meyvə şirələri, dərman bitkilərinin ekstraktları sahibkarın zəhmətinin bəhrəsidir. Muxtar respublikamızda keçirilən "Ailə təsərrüfatı məhsulları", "Arıçılıq məhsulları – bal festivalı"nda üç ildir ki, fəal iştirak edir, istehsal etdiyi məhsullarla festivallara çıxarır və dəfələrlə qalib adını qazanıb.



Zəhmət adamı deyir: Bostanımda heç bir kimyəvi gübrədən istifadə etmir, orqanik məhsullar yetişdirirəm. Bu səbəbdən də festivallara çıxardığım məhsullar həmişə alıcılar tərəfindən yüksək səviyyədə qarşılanır. Həmin məhsullar içərisində diqqəti cəlb edən evdə istehsal etdiyim konservləşdirilmiş ət, bir çox dərman bitkilərindən hazırladığım ekstraktlar, turşular və sairdir. Bu məhsulların üzərinə vurulan sertifikatlar festivallarda iştirak edən xarici turistlərin mənə müraciət sayını artırıb.

Yaşar Həbibov ev quşları və mal-qara da saxlayır. Süd, qaymaq, pendir kimi ağartı məhsullarını bazara çıxarıb qazanc əldə edir. O həm də dibçək və torpaqda limon yetişdirir. Yaşar əminin sözlərinə görə, dibçəkdə yetişdirilən limon daha keyfiyyətli olur. O deyir: Bu gün muxtar respublikada brend məhsullardan sayılan qızıl çiyələkdən hazırladığım mürəbbə məhsullar içərisində özünəməxsus yer tutur. Diyarımızda ilk dəfə becərilən, qeyri-adi dada, müalicəvi əhəmiyyətə malik olan çiyələyin bu yeni növünü artıq bir neçə ildir ki, əkib-becərirəm. Bu nadir meyvə bir sıra xəstəliklərin müalicəsində faydalı olduğu üçün alıcısı da çox olur.

Müsahibim bildirir ki, muxtar respublikada zəhmətkeş insanların əməyi daim qiymətləndirilir, onlara təsərrüfatlarını genişləndirmək üçün şərait yaradılır, dəstək göstərilir. Bu gün dövlətimizin ailə təsərrüfatlarına verdiyi dəstək nəticəsində təsərrüfata olan bağlılıq daha da artıb.

Yaşar Həbibov arıçılıqla da məşğul olur. Keyfiyyətli arıçılıq məhsulları istehsal edən sahibkar Naxçıvan şəhərində keçirilən "Arıçılıq məhsulları – bal festivalı"nda hər il iştirak edir. O bildirir ki, istehsal etdiyimiz məhsulları Bakı şəhəri ilə yanaşı, Türkiyənin bir sıra şəhərlərinə də sata bilirik.

Təsərrüfat başçısı həyətində əkdiyi kartof, lobya, pomidor, xiyar, kələm və digər məhsulları da satışa çıxarmaqda çətinlik çəkmədiyini deyir. Bu il bağımızda olan müxtəlif meyvə ağaclarından da yüksək məhsuldarlıq əldə etməyi gözləyirik. Təsərrüfatçı ailə üzvlərinin köməyi ilə alma, armud, heyva, üzüm, şaftalı, gilənar, gilas, əncir, tut və digər meyvə və giləmeyvələrdən kompot, mürəbbə, doşab hazırladıqlarını dedi. Bundan başqa, topladığımız dərman bitkilərindən – kəklikotu, həmərsin, yemişan və digərlərindən mürəbbə hazırlayır, boymadərən, çobanyastığı, şahtərə, baldırğan, çayır kimi bitkilərin ekstraktını çəkirik. Hazırladığımız bütün məhsullar öz keyfiyyəti ilə seçilir.

Nümunəvi ailə təsərrüfatı sahibi muxtar respublikamızda insanların rahat yaşaması üçün yaradılan şəraitə, ailə təsərrüfatlarının inkişafına göstərilən dəstək və qayğıya görə dövlətimizə minnətdarlığını bildirdi.

Burada gördüklərimiz onu deməyə əsas verir ki, bu gün muxtar respublikamızda Yaşar Həbibov kimi nümunəvi ailə təsərrüfatçıları kifayət qədərdir. Onların istehsal etdikləri məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, qədim diyarımızın ölkə xaricində tanıdılmasında da mühüm rol oynayır.

**Güntac ŞAHMƏMMƏDLİ**

## “Azərbaycanın ürəyidir Naxçıvan” sənədli filmi Bolqarıstanda keçirilmiş turizm film festivalında mükafatlandırılıb




Bolqarıstan Respublikasının Turizm Nazirliyinin himayəsi altında Turizm Film Festivallarının Beynəlxalq Komitəsinin üzvü olan “Avropanın Şərq Sahilində” adlı 16-cı Bolqarıstan Beynəlxalq Turizm Film Festivalı keçirilmişdir.

Dünyanın hər yerindən turistik istiqamətləri təqdim edən festivalın məqsədlərinə turizm məhsulları barədə videoçarxların geniş kütləyə çatdırılması, mədəni və tarixi irsin reklamına investisiya qoyulmasının stimullaşdırılması, turizm şirkətləri arasında marağın yaradılması, peşəkar audiovizual səyahət istehsalının təşviq edilməsi, yüksək effektiv reklam üçün mühitin formalaşdırılması daxildir. Film festivalında ölkələr, bölgələr, təbiət, mədəniyyət, tarixi yerlər və muzeylər, əyləncə turları, ənənəvi adət və ayinlər mövzuları üzrə hazırlanmış videoçarxlar onlayn şəkildə geniş auditoriya tərəfindən izlənilmişdir.

Azərbaycan Respublikasının Bolqarıstandakı Səfirliyinin təşəbbüsü əsasında Naxçıvan Dövlət Televiziyası tərəfindən hazırlanmış “Azərbaycanın ürəyidir Naxçıvan” adlı sənədli filmin ingilis dilində olan variantının namizədliyi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən festivalın təşkilatçılarına təqdim olunmuşdur. Festivalın münsiflər heyəti tərəfindən təqdim edilmiş filmlər nəzərdən keçirilmiş və 3 may 2020-ci il tarixdə qaliblər elan olunmuşdur.

Festivalın “Turizm məkanı” kateqoriyası üzrə “Reportaj və ya sənədli film” alt kateqoriyasında Naxçıvan Dövlət Televiziyasının istehsalı olan “Azərbaycanın ürəyidir Naxçıvan” adlı sənədli filmi qalib gəlmişdir. Sənədli film festivalın rəsmi internet səhifəsində və “Youtube” kanalında yerləşdirilmişdir.

Festivalda iştirak muxtar diyarın mədəniyyəti, tarixi, adət-ənənələri və turizm potensialını təbliğ etməklə yanaşı, həm də Naxçıvanın zəngin tarixi-mədəni irsi, turizm imkanları və mövcud inkişafının Avropa məkanında tanıdılmasına imkan vermişdir.

Festivalda, həmçinin təbiət-ekoturizm, idman-macəra və turizm xidmətləri kateqoriyaları üzrə mükafatçılar müəyyən olunmuşdur.

2020-ci ildə Azərbaycanla yanaşı, Bolqarıstan, Danimarka, Xorvatiya, Sloveniya, Cənubi Afrika Respublikası, Çili, Fransa, Avstriya, Norveç, Rusiya, Portuqaliya, İndoneziya, İspaniya və Yaponiya daxil olmaqla, sözügedən festivalda 24 ölkə 54 filmlə iştirak etmişdir.

*Qədim və zəngin tarixə malik Naxçıvanın iyirminci əsrdə yetirdiyi görkəmli ziyalılar sırasında yazıçı, tərcüməçi, publisist və ictimai xadim Əli Səbri Qasımovun (1892-1983) özünəməxsus yeri vardır. Onun qələmə aldığı roman, povest və hekayələr, sayı yüzlərlə ölçülən ədəbi-tənqidi və publisistik məqalələr, müxtəlif xalqların ədəbiyyatlarından etdiyi tərcümələr öz dəyərini bu gün də saxlamaqdadır. Vətənpərvər ədibin milli mücadilədə fədakarlığı da böyük tarixi əhəmiyyətə malikdir.*

*Yeni nəşrlər*

## Naxçıvanlı ədib və ictimai xadim haqqında dəyərli tədqiqat əsəri

Görkəmli ziyalının çoxşaxəli fəaliyyətinin, zəngin yaradıcılığının sistemli, əhatəli şəkildə öyrənilməyini nəzərə alan AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, Əməkdar elm xadimi, professor Hüseyn Həşimli uzunmüddətli araşdırmalarının nəticəsi olaraq “Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı” adlı monoqrafiya nəşr etdirmişdir. Naxçıvanda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çapdan çıxmış 232 səhifəlik bu dəyərli kitabın elmi redaktoru AMEA-nın birinci vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Əməkdar elm xadimi, akademik İsa Həbibbəyli, rəyçiləri isə AMEA Naxçıvan Bölməsinin sədri, Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyev və bu sətirlərin müəllifidir.

Kitabın giriş hissəsində Əli Səbri Qasımovun ədəbi və ictimai fəaliyyətinin əsas mündəricəsindən söz açılarkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvanın muxtariyyət statusu qazanmasının doxsan illiyinə həsr olunmuş tədbirdəki çıxışında (8 aprel 2014-cü il) Əli Səbrinin tarixi xidmətlərinə verdiyi aşağıdakı yüksək qiymət nəzərə çatdırılır: ***“Naxçıvan ziyalıları yaxşı başa düşürdülər ki, mübarizə aparmadan muxtariyyət qazanmaq mümkün deyil. Odur ki, əlində qələm tutanlar da siyasi mübarizə cəbhəsində vuruşurdular. Onlardan yazıçı-publisist Əli Səbri Qasımovun və Naxçıvanın ləyaqətli oğlu Behbud ağa Şahtaxtinskinin adını xüsusi qeyd etmək istəyirik”.*** Vətənpərvər ziyalı Əli Səbri Araz-Türk Cümhuriyyəti dövründə Naxçıvanın erməni basqınlarından qorunması üçün aparılan mübarizələrdə yaxından iştirak etmiş, özünün qətiyyətli milli mövqeyini ortaya qoymuşdur.




Hüseyn Həşimli belə bir görkəmli şəxsiyyətin həyat və yaradıcılığına həsr olunmuş kitabı yazmaq üçün arxivlərdən, kitabxanalardan, yüz ildən artıq bir dövrün mətbuatından çoxsaylı və müxtəlif səpkili materiallar toplamış, onları ilk dəfə sistemli tədqiqata cəlb etmişdir.

Monoqrafiyanın “Şərəfli ömür yolu” adlanan ilk fəslində yazıçının 1892-ci ildə Naxçıvandan başlanıb 1983-cü ildə Bakıda tamamlanan doxsan bir illik həyatının əsas bioqrafik faktları, mərhələləri, fəaliyyətinin başlıca istiqamətləri ardıcıllıq və dəqiqliklə nəzərə çatdırılmışdır. İlk təhsilini Naxçıvan şəhərində alan Əli Səbrinin 1909-1913-cü illərdə Qori Müəllimlər Seminariyasında oxuması, sonra Bakıda müəllimliklə yanaşı, ədəbi-mədəni mühitdə fəallığı, Birinci Dünya müharibəsi illərində Osmanlı türklərinə yardım hərəkatında yaxından iştirakı, Araz-Türk Cümhuriyyəti dövründə və sonrakı vaxtlarda Naxçıvanın qorunması istiqamətində mübarizələrdə fədakarlığı, sovet dövründəki məşəqqətli taleyi, stalinizm dönəmində dəfələrlə həbsə alınması, ömrünün on səkkiz ilini həbsdə və sürgündə keçirməsi, 1950-ci illərin ortalarından sonrakı fəaliyyəti və digər məsələlərin böyük qismi ilk dəfə aşkara çıxarılan çoxsaylı faktlar və materiallar əsasında diqqət mərkəzinə çəkilmişdir.

“Əli Səbri Qasımovun bədii yaradıcılığı” adlanan ikinci fəsildə yazıçının müxtəlif vaxtlarda yazdığı oxunaqlı nəsr əsərləri tədqiqata cəlb olunmuşdur. Onun hələ tələbə ikən, 1912-ci ildə çap etdirdiyi “Şəbi-hicran, yaxud müsibəti-Şadi” povesti hərtərəfli şəkildə araşdırılmışdır. Onu da demək yerinə düşər ki, yazıçının sonralar kitablarında yer almayan bu əsərini monoqrafiya müəllifi bir neçə il bundan əvvəl nəşr etdirərək ilk dəfə müasir oxuculara çatdırmışdır. Əli Səbri yaradıcılığının ən qiymətli nümunələrindən olan “Solğun çiçək” romanı 1913-cü ildə qələmə alınsa da, indi də maraqla oxunur, ideya-bədii mükəmməlliyi ilə diqqəti çəkir. Həmin romanı da ilk dəfə əhatəli araşdırmaya cəlb edən ədəbiyyatşünas alim müxtəlif vaxtlarda ədəbi-tənqidi fikrin əsərə münasibəti barədə diqqətəlayiq faktları da aşkara çıxararaq dəyərləndirmişdir. Kitabda Əli Səbrinin qələmindən çıxmış “Qaraçılar”, “Ümid işıqları”, “Himayə”, “Firuzun kədəri” kimi mükəmməl hekayələr də elmi-ədəbi təhlilə cəlb olunmuş, onların bir qismi həm də uşaq ədəbiyyatımızın səciyyəvi örnəkləri sırasında nəzərdən keçirilmişdir. Bütövlükdə, yazıçının roman, povest və hekayələri Azərbaycan sentimentalist ədəbiyyatının təşəkkülü və inkişafında, nəsrimizdə psixologizmin möhkəmlənməsində, ictimai mündəricənin fərdi talelər timsalında təqdimində mühüm rol oynayan bədii nümunələr kimi öz elmi qiymətini almışdır.

1910-cu ildən mətbuata qədəm qoyan Əli Səbri Qasımov fəaliyyəti boyunca sosial-siyasi həyatın müxtəlif məsələlərinə, maarif, mədəniyyət, bədii yaradıcılıq, ədəbi dil problemlərinə dair dörd yüzdən çox məqalə yazaraq dərc etdirmişdir. 1920-ci ilədək “Sədа”, “İqbal”, “Yeni füyuzat”, “Məlumat”, “Yeni irşad”, “Açıq söz”, “Sovqat”, “Al bayraq”, “Azərbaycan”, “Gənclər yurdu” kimi qəzet və jurnallarda çıxış edən publisistin sovet dövründə də bir sıra mətbuat orqanlarında məqalələri dərc olunmuşdur. Bütün bunlar görkəmli ədibin ədəbi-tənqidi və publisistik irsinin tədqiqinə həsr olunan üçüncü fəsildə özünün dolğun elmi qiymətini almışdır. Bu fəsildə də araşdırılan çoxsaylı materialların əksəriyyəti ilk dəfə elmi dövriyyəyə gətirilmişdir. Yazıçının müxtəlif vaxtlarda qələmə aldığı memuarları, xatirat səpkili məqalələri də bir sıra tarixi fakt və hadisələri, sosial-mədəni prosesləri, ədibin müasiri olmuş görkəmli ziyalılarla bağlı maraqlı məqamları aydınlaşdırmaq baxımından əhəmiyyətli mənbələr kimi təhlilə cəlb olunmuşdur.

Monoqrafiyanın sonuncu fəsli Əli Səbrinin tərcüməçilik fəaliyyətinə həsr olunmuşdur. Tədqiqatçı müəyyənləşdirmişdir ki, Ə.Səbrinin ilk tərcümə kitabı 1911-ci ildə seminariya tələbəsi ikən rus yazıçısı A.P.Çexovun “Qız istəmək” adlı dramatik əsərini tərcümə və nəşr etdirməsidir. Bundan sonra o, məşhur rus ədibi L.N.Tolstoyun bir sıra əsərlərini dilimizə çevirmişdir. İstedadlı mütərcimin rus yazıçısı V.İ.Dmitriyevadan “Balaca və Xallı” adlı tərcümə-təbdili, həmçinin M.F.Çumandrin, P.P.Verşigora kimi rus yazıçılarının, ingilis ədibi V.Şekspirin, hind yazıçısı R.Taqorun bəzi əsərlərini, gürcü ədəbiyyatından müxtəlif hekayələri, həmçinin çoxsaylı ictimai-siyasi, elmi-kütləvi, pedaqoji materialları Azərbaycan dilinə çevirməsi də maraqlı faktlardır. Ə.Səbri, həmçinin Azərbaycan ədəbiyyatının və filoloji fikrinin M.S.Ordubadi, Y.V.Çəmənzəminli, S.Şamilov, F.Qasımzadə kimi tanınmış nümayəndələrinin bəzi əsərlərini rus dilinə tərcümə etmişdir.

*Bütövlükdə, professor Hüseyn Həşimlinin “Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı” adlı monoqrafiyası həm ictimai fəaliyyəti, həm də çoxşaxəli yaradıcılığı ilə xalqa, Vətənə ləyaqətlə xidmət göstərmiş unudulmaz ziyalıya həsr olunan dəyərli tədqiqat kimi mühüm əhəmiyyətə malikdir.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü, professor**

*“Naxçıvan” Universitetində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə onlayn görüş keçirilib.*

## Tələbələrlə onlayn görüş keçirilib



“Naxçıvan” Universitetinin İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədov görüşdə “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamının əhəmiyyətindən danışıb. Bildirib ki, gələcəkdə müvafiq sahələrdə çalışacaq kadrların daha peşəkar yetişməsi, onların seçdikləri ixtisasların sirlərinə dərindən yiyələnmələri sürətli və dayanıqlı inkişafın əsas amillərindən biridir.

Sonra Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı Orxan Abdinovun “Muxtar respublika sahibkarlarının beynəlxalq tədbirlərdə iştirakının yerli istehsal məhsullarının dünya arenasında təbliği və təşviqində əhəmiyyəti” mövzusunda çıxışı dinlənilib.

Bildirilib ki, yerli məhsulların nümayiş etdirildiyi sərgilər ticarət əlaqələrinin genişləndirilməsi, iş adamları arasında ünsiyyətin qurulması və əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli, yeni tərəfdaşların tapılması, istehsalın şaxələndirilməsi və müəssisələrin imicinin formalaşdırılması baxımından faydalıdır.

Son illər muxtar respublikamızda emal və istehsal müəssisələrinin sayının artması sahibkarlığın inkişafına ciddi önəm verilməsinin göstəricisidir. Həmin müəssisələrdə istehsal olunan məhsullar daxili bazarın qorunmasında mühüm əhəmiyyət daşıyır. Yaradılmış şərait hesabına dünyaya inteqrasiya olunduğumuz bir dövrdə artıq sahibkarlar daxili bazarla kifayətlənməyərək həm də rəqabətədavamlı, ixracyönümlü məhsul istehsalına da ciddi fikir verirlər. Bir neçə ildir ki, müxtəlif sahibkarlıq subyektləri öz məhsullarını xarici bazarlara çıxarmaq imkanları da qazanıblar. Keyfiyyətli və ixracyönümlü məhsul istehsalı işin bir tərəfidirsə, onun xarici bazara çıxarılması üçün şərait yaradılması digər tərəfidir. Bu cəhətdən xarici ölkələrdə təşkil olunan beynəlxalq tədbirlər mühüm əhəmiyyət daşıyır. Ölkə daxilində və xaricində həyata keçirilən sərgilərdə və bir sıra tədbirlərdə sahibkarların iştirakının təmin olunması, yerli məhsulların nümayişi ilə bərabər satışının dəstəklənməsinə də xidmət edir.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**

## Gənclərin asudə vaxtı səmərəli təşkil olunur

Aprel ayında pandemiya ilə əlaqədar olaraq ölkə və muxtar respublika ərazisində müəyyən olunmuş karantin rejimi dövründə gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi, onlarda mütaliəyə marağın daha da artırılması və kitabları gənclərə sevdirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin sosial şəbəkələrindəki hesablarında “Evdə qal, mütaliədən qalma” aksiyası keçirilmiş, könüllü gənclər tərəfindən əhaliyə müraciət olunaraq “Evdə qal!” çağırışı ilə videoçarx hazırlanmış, “Kitabi-Dədə Qorqud” dastanı və milli-mənəvi dəyərlər” mövzusunda onlayn kitab müzakirəsi, “Mənim Qəhrəmanım” adlı onlayn vətənpərvərlik aksiyası və “Pozitiv düşüncələrin həyatımıza təsiri və karantin günlərində ruh yüksəkliyimizi artırmağın yolları” mövzusunda onlayn psixoloji təlim keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən məktəblilər arasında onlayn şahmat yarışları təşkil edilmiş, bədən tərbiyəsi və idmanın təbliği məqsədilə “Evdə qal, idmandan qalma!” şüarı altında videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

Gənclər və İdman Nazirliyinin tabeliyində olan idman obyektlərində, həmçinin özəl fitnes mərkəzlərində yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya işləri və obyektlərin əməkdaşları ilə gigiyena tədbirlərinin müntəzəm diqqətdə saxlanılması barədə maarifləndirici söhbətlər aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***



*Qədim Naxçıvan özünün bənzərsiz turizm-rekreasiya ehtiyatları ilə həmişə buraya səyahət edən turistlərin diqqətini cəlb edir. İstər təbii, tarixi-mədəni, istərsə də sosial-antropoloji resurslar baxımından Azərbaycanın bu qədim diyarında turistlərin diqqətini çəkəcək çox geniş məzmunlu turizm ehtiyatları vardır. Naxçıvana səyahət edən turistlər buraya ilk ayaq basdığında, sanki bütün dünyadan daha fərqli məkana düşdüklərini, insan, təbiət və tarix anlayışının bir ahəngdə bir-birini çox gözəl tamamladığını öz gözləri ilə görürlər. İntensiv sosial-iqtisadi həyatın yaratdığı gərginliklərdən azad olmaq, mənəvi zənginliyə qovuşmaq və sağlamlığı bərpa etmək istəyən turistlərin də tələbatları budur.*

Turizm

# Zəngin turizm-rekreasiya potensialına malik məğrur təbiət gözəli

Haqadağ Naxçıvanın simvolu, onun qürurunu və bütün dünyada bənzərsizliyini göstərən bir təbiət abidəsidir. Təbiət abidəsi kimi Haçadağın turizm-rekreasiya cazibəsi onu görənləri həmişə heyrətə salır. Bu tanışlıq isə Naxçıvana gələn hər bir qonaqda onun sərhədlərinə ayaq basmadan əvvəl başlanır. Coğrafi cəhətdən hardasa Naxçıvanın tam mərkəzi mövqeyində olan Haçadağ, sanki bir alınmaz qala kimi hələ uzaqdan özünün qürurlu duruşunu hamıya göstərir, qonaqları salamlayır, bədniyyətlilərin canına qorxu salır. Haçadağın ecazkar mənzərəsi ilə tanışlıq həm də Naxçıvana enən hava gəmisinin pəncərəsindən başlanır. Bu cazibə qüvvəsi özünün inikasını daha sonra turistlərin Naxçıvanla tanışlığı zamanı hər yerdə rastlaşacağı qonaqpərvərlik, sosial həyatdakı qayda-qanun və insanların gündəlik həyatındakı axıcı bir ahəngdə tapacaq.

Haçadağ Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində vulkan mənşəli dağdır. Demək olar ki, Naxçıvanın hər yerindən aydın görünən dağın hündürlüyü 2415 metrdir. Zəngəzur silsiləsindən cənub-qərbə ayrılan Dəmirlidağ-Göydağ qolunun qurtaracağında, Əlincə çayının sol sahilində yerləşir. Naxçıvan şəhərindən, təxminən, 40, Culfa rayon mərkəzindən 30 kilometr məsafədədir. Dağın ətrafında Gal və Xoşkeşin kəndləri yerləşir. Yamacları sıldırımlı olan Haçadağın sinəsində kolluq və dağ-meşə landşaftı var. Zirvənin daha iki adı mövcuddur: onlardan biri İnandağ, yəni "inam dağı", digəri isə Haçadağ, yəni zirvənin dar buğumla birləşdirilmiş iki hissədən ibarət olduğunu ifadə edən "ikiyə parçalanmış dağ" kimi səslənir. Şumer mənşəli əfsanəyə görə, Nuh Peyğəmbərin gəmisi Gəmiqayadan Ağrı dağına yola düşərkən Haçadağın zirvəsinə elə güclü toxunmuşdur ki, dağ haçalanmışdır. Ehtimal ki, dağın adı da bu əfsanə ilə bağlıdır.



Haçadağ Naxçıvanın hazırda ən populyar turizm marşrutlarından biri olan Naxçıvan-Əlincə turizm marşrutunun üzərində yerləşir. Əlincəyə çatmağa az qalmış turistlərin gözü qarşısında əzəmətlə ucalan Haçadağ, sanki Əlincəqalanın böyük qardaşı kimi tarixboyu Naxçıvana gəlmiş səyyahları salamlayaraq öz varlığını bütün dünyaya tanıdıb. İlin çox vaxtı incəbelli nazlı gəlin kimi ağ örpəyə bürünən Haçadağın sinəsindəki dumanın uzaqdan görünüşü fotohəvəskarları olan turistlər üçün əsl turizm resursudur. Belə mənzərələri isə istər günçıxımı, istərsə də gün-batımı saatlarında daha çox görmək olar. Haçadağa qalxmaq, buradakı zəngin flora və fauna ilə tanış olmaq istəyən turistlər üçün isə onları burada bambaşqa bir dünya gözləyir. Dağa dırmanmış alpinist turistlər etiraf edirlər ki, buradakı vəhşi həyatın zənginliyi heç də Amazon cəngəlliklərindən geri qalmır. Şübhəsiz, Naxçıvandakı təmiz ekoloji şərait və təbiətin qorunmasına yönəlmiş tədbirlər Haçadağ və ətrafında da hər kəsin gözünü doyura biləcək bir təbii zənginlik yaradır. Burada yerli faunaya xas olan vəhşi heyvanları, nadir quşları, unikal dərman bitkilərini, qayada bitmiş kol və ağacları, dağın zirvəsinə yaxın yerdən qaynayan buz bulaqları görmək istəyənlər üçün maraqlı səyahət proqramları təşkil etmək olar. Bütün bunlar isə turistləri Haçadağa çəkən, hər dəfəsində onu görüb heyrətlənən insanlarda dərin təəssüratlar yaradan cazibə elementləridir.

Haçadağ ekoturistlərin, alpinistlərin və ekstremal yürüş həvəskarlarının həvəslə dırmandığı bir turizm destinasiyadır. Dağa Culfanın Gal və Xoşkeşin kəndlərindən yerli bələdçilərin xidmətlərindən istifadə etməklə dırmanmaq olar. İlin aprel, may aylarında dağa edilən yürüşlər daha maraqlıdır. Dağın zirvəsinə asan dırmanmaq, vəhşi təbiətə daha az zərər vermək baxımından bu, turizmin də dayanıqlı inkişafı prinsiplərinə əməl olunması deməkdir. Çünki Haçadağ təkcə turistlərin maraq obyekti deyil, həm də xalqımızın milli sərvəti, ümumbəşəri dəyər daşıyan bir təbiət möcüzəsidir.

*Naxçıvanda ilin yaz fəsli, ayların yağmurlu, günlərin daha uzun və havanın da şəffaf vaxtlarıdır. Belə bir zamanda Haçadağı bir daha görməyin, onun gözəlliyini yaddaşlara köçürməyin tam vaxtıdır.*

**Həbib ZEYNALOV**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

***Artıq neçə gündür ki, mübarək Ramazan ayına qədəm qoymuşuq. Müsəlman bacı-qardaşlarımızın oruc tutduğu bu ayda sağlam qidalanmaq və immuniteti möhkəmləndirmək zəruridir.***

Həkim məsləhəti

# Sağlam olmaq və immuniteti möhkəmləndirmək üçün orucluq zamanı düzgün qidalanaq

Qışdan yaza çıxan orqanizmdə avitaminoz, vitaminsizlik mineralsızlıq baş qaldırır. Buna görə də hüceyrələrimiz passiv, yorğun vəziyyətə düşürlər. Bahar yorğunluğunun aradan qaldırılması və hüceyrələrin canlı, aktiv qalması təbii qida istehlakından çox asılıdır. İnsan orqanizmində də virus və infeksiyaların hücumunun məruz qaldığı yer hüceyrələrdir, özü də ağciyər, ürək, böyrək, bağırsaq və digər orqan hüceyrələri. İnsan orqanizmində iki qoruma mexanizmi mövcuddur: hüceyrədaxili və humoral. Əgər virus hüceyrəyə daxil olarsa, hüceyrə daxilində onu ilk qarşılayanlar bizim "daxili qoşunlar" – makrofaqlar və T limfositlərdir. Makrofaqların və T limfositlərin "silah-sursat" xammalı isə azot oksididir. Orqanizmə azot oksidini təbii məhsullarla qidalanmaqla qazandırmış oluruq. Bu azot oksidlər sərbəst radikallar əmələ gətirir ki, onların sayəsində viruslar məhv edilir.

Məlum olduğu kimi, bir çox xroniki xəstəliklərin aranma səbəbi məhz orqanizmdə iltihab ocaqlarının varlığıdır. "Daxili və xarici qoşun"ları iltihab "ordusu" əleyhinə gücləndirmək üçün yaşıl yarpaqlı tərəvəzlərdən və göyərtilərdən, xüsusilə dağ bitkilərindən (hazırda mövsümüdür) istifadə etmək lazımdır ki, orqanizm nitrit-oksidlə təmin olunsun. İltihabəleyhinə mübarizədə tərkibində kükürdlü birləşmələr (turp və kökümeyvəlilər və bütün növ kələmlər) olan tərəvəzlər, eləcə də antioksidant (mövsümi) meyvələr və dağ bitkiləri (kəklikotu, çobanyastığı, nanə və sair) istifadə edilməlidir.

Bir məqamı da diqqətinizə çatdıraq ki, müasir dövrümüzdə geniş yayılmış pandemiyadan qorunmaq, virusun orqanizmimizə daxil olub hüceyrəyə yapışa bilməməsi, müqavimətinin qırılması və immun sistemimizin gücünü aşa bilməməsində lektin mühüm rol oynayır. Bəs lektin hansı qidalarda var? Yaşıl mərcimək, noxud, bütün paxlalılar və tam taxıllı qidalarda. Bütün yazılanlara əlavə olaraq onu deyə bilərik ki, xüsusilə C vitamini daxil olmaqla, bütün vitaminlər, dəmir mineralı və təmiz hava, doğru diafraqmatik nəfəsalma, normal gecə yuxusu və müsbət düşüncələr bu dövrdən sağlam şəkildə qurtulmağımızda böyük rol oynayır.

Dünyada yayılmış virusla əlaqədar olaraq insanların bir çoxu oruc tutmaqdan çəkinirlər. Səbəb isə immun sisteminin aşağı düşməsi göstərilir. Qeyd edək ki, oruc tutmaq bütün dinlərdə mövcuddur. İslam dinində isə biraylıq Ramazan orucu bütün müsəlmanlara vacib bilinmişdir. Orucun həm psixoloji, həm fizioloji, həm də maddi və mənəvi faydaları vardır. İnsanın yediyi qidanı həzm etməsi üçün orqanizmdə qanın çox hissəsi mədəyə yönəlir. Beyinə gedən qan miqdarında azalma olur. Nəticədə, insan baş verən hadisələri lazımi həssaslıqla qiymətləndirməkdən uzaq olur. Dolayısı ilə insan baş verən hadisələrin mənəvi qatından xəbərsiz ömür keçirir. Oruc zamanı isə insan günün müəyyən olunmuş zamanında ac qaldığı üçün insan beyni, zəkası daha fəal çalışır.

Fizioloji baxımdan oruc tutmağın faydası barədə təkcə bunu qeyd etmək kifayətdir: 2016-cı ildə yapon bioloqu Yoşinori Ohsimu Nobel mükafatına layiq görülərək sübut etmişdir ki, insan hüceyrəsinin özözünü bərpaetmə xüsusiyyəti vardır. "Öz-özünüyemə" adlanan bu sistem isə aclıq zamanı işə düşür və insan orqanizmində harada xəstə, qocalmış, işəyaramayan ölü hüceyrələr və ya yad bakteriya, virus varsa, onu həzm edib kiçik hissələrə parçalayır. Sonra isə bu hissələrdən yenidən orqanizmə lazımlı sağlam hüceyrələr inşa edilir. Lakin bu yenilənmə düzgün tutulan oruc zamanı baş verə bilir.

Ramazan ayında tutulan 30 günlük oruc müddətində insan orqanizmindəki bütün toxumalarda yenilənmə və cavanlaşma baş verir və immun sistemi güclənir. Bunun üçün isə çalışaq ki, orucluğun ilk gecəsi, yəni niyyət axşamının gündüz vaxtları yeməyimiz tərəvəz və ya meyvə olsun və bunu da saat $18^{00}$-a kimi bitirək. Sonra isə yatana kimi bol maye (su, bitki çayı, meyvə suları və sair) qəbul etməliyik ki, sahurda iştahalı oyanaq. İçdiyimiz maye saatlı zəng kimi bizi sahura oyadacaq və acluğımızı hiss edəcəyik. Sahurda isə bol proteinli balanslaşdırılmış qidalardan qəbul etsək, bir çox oruc tutanların yaşadığı halsızlıq, başgicəllənmə, əl-ayaq əsmələri, təzyiq düşmələri yaşamadan (yəni həyat performansımız azalmadan) sağlam orucun necə gözəl olduğunun fərqini hiss edəcəyik. İftar zamanı, təbiidir ki, çox adamın iştahası olmur və suya tələbatı daha çoxdur. Ancaq nəzərə almaq lazımdır ki, iftar zamanı ağır ət yeməkləri yeyib üstündən də bol maye içmək qəbul edilən qidanın həzm olunması ilə deyil, çürüməsi ilə nəticələnir. Çünki axşam saatlarında maddələr mübadiləsi zəifləndiyindən həzm sistemimizdə də zəifləmə özünü göstərir. Çalışın iftarda müxtəlif növ mayelərə (bu zövqünüzə görə su, bitki çayları, meyvə şirələri, kompotları və sair ola bilər) üstünlük verəsiniz. Qida kimi isə çalışın doğma diyarımızın zəngin təbiətində yetişən, vitamin və minerallarla zəngin mövsümi tə-





rəvəzlərdən hazırlanan yeməklərə, salatlara, dağ bitkilərindən hazırlanan kükü və kətə kimi milli yeməklərimizə və mövsümi meyvələrdən istifadə edilərək hazırlanan meyvə salatlarına və şirniyyatlarına üstünlük verin. Xüsusilə də orqanizm üçün ən vacib minerallardan biri olan kalsiumla, $B_{12}$ vitamini ilə zəngin, həzm sisteminin mikroflorası üçün çox əhəmiyyətli olan yerli ağartı məhsullarından kefir, qatıq, pendir, kəsmik də axşam saatlarında (probiotik və prebiotik olmalarına görə) həzm edilməsi çətinlik törətməyən qidalar olduğu üçün onlardan istifadə etmək daha faydalıdır. Azərbaycan mətbəxinin şah əsərləri sayılan ətli, düyülü yeməkləri (çox duzlu olmamaq şərtilə) sahurda yeməyə çalışın və mədə rahatladıcı bitki çaylarından (çobanyastığı, yarpız, nanə, limon, tərxun və sair) da istifadə edin.

*Mübarək Ramazan ayında düzgün qidalanmaqla sağlamlığınızı qorumaq, bütün xəstəliklərə qalib gəlmək diləyi ilə...*

**Pərvanə QƏHRƏMANOVA**
***"Şəfa" Özəl Tibb Mərkəzinin əməkdaşı, dietoloq***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi

### *2020-2021-ci tədris ili üçün Naxçıvan Qızlar Liseyinə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2020-2021-ci tədris ili üzrə ümumtəhsil məktəblərinin V sinfində təhsil alacaq qız şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideynin ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış*
*5. Sağlamlıq haqqında arayış.*

Sənədlər 7 may 2020-ci il tarixdən 29 may 2020-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyində qəbul ediləcəkdir.

Müsabiqə 11 iyun 2020-ci il tarixdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 30, ingilis dili fənni üzrə 10 olmaqla, ümumilikdə, 3 fəndən 70 sual təqdim olunacaqdır. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Naxçıvan Qızlar Liseyi, İ.Məmmədov küçəsi 2***
***Əlaqə nömrələri: (036) 545-03-47***
***(036) 545-23-62***

## *İtmişdir*

Mirzəyev Xaliq Ələkbər oğlunun adına olan 0200841482 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Orucova Yasəmən Arif qızının adına olan 0200621672 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Namazov Arif Süleyman oğlunun adına olan 0200308322 nömrəli VÖEN və Dövlət Sosial Sığorta şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

* * *

İmamalıyev Samir Səməd oğlunun adına olan 0200998692 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 11-ci məhəllə 70 ünvanında yaşayan Qurbanova Sabirə Hüseyn qızının adına olan MH-0015793 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 330